


Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 226 (23.638)

25 dekabr 2020-ci il, cümə

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymәti 20 qəpik


## *Rəsmi xronika*

Xəbər verdiyimiz kimi, dekabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Qubadlı və Zəngilan rayonlarında olublar. Ermənistanın qanunsuz məskunlaşma apardığı Qubadlının Xanlıq kəndində hərbçilərlə görüş olub. Dövlətimizin başçısı söhbət zamanı qəhrəman Azərbaycan əsgərinin öz gücünü bütün dünyaya göstərdiyini bildirib.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı şəhərinə yola düşüblər. Ölkəmizin başçısı Qubadlıda Azərbaycan bayrağını ucaldıb. Dövlətimizin başçısı burada çıxış edərək Qubadlı şəhərinin azad edilməsinin tarixi hadisə olduğunu, xüsusi peşəkarlıq və fədakarlıq tələb etdiyini, qələbəmizi yaxınlaşdırdığını vurğulayıb. Bildirilib ki, bu gün ən inkişaf etmiş ölkələrin ali hərbi məktəblərində Azərbaycanın döyüş taktikası, bizim əməliyyatlar öyrənilir və bu, müasir döyüş taktikasıdır.

Prezident İlham Əliyev noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın faktiki olaraq Ermənistan dövlətinin kapitulyasiyası olduğunu, digər rayonların bir güllə atmadan bizə qaytarıldığını diqqətə çatdırıb. Bildirilib ki, bu gün vaxtilə işğal edilmiş torpaqlarda Azərbaycan bayrağı dalğalanır.

Sonra dövlətimizin başçısı və birinci xanım işğaldan azad olunmuş Zəngilan rayonuna yola düşüblər. Prezident İlham Əliyev Zəngilanda Azərbaycan bayrağını ucaldıb. Mənfur düşmən tərəfindən dağıdılan məscidin qarşısında çıxış edən Prezident İlham Əliyev bütün dini abidələrimizin düşmən tərəfindən dağıdılığını, onların bərpa olunacağını, bu torpaqlara həyat qayıdacağını bildirib.



## Ümummilli ideyalara, qətiyyətli siyasətə əsaslanan müasir inkişaf yolu

*Müstəqil Azərbaycan Respublikasının qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyev çoxşaxəli fəaliyyətində böyük və mütərəqqi bir tarixi missiyanı – dünya azərbaycanlılarının milli birliyinin ideoloq, təbliğatçısı və təşkilatçısı olmaq missiyasını öz üzərinə götürmüş və bunu uğurla həyata keçirmişdir. Ulu öndərin müdrik siyasəti nəticəsində dünyada yaşayan azərbaycanlılarla iş dövlət əhəmiyyətli strateji məsələyə çevrilmişdir. Bu mühüm işin konsepsiyası – dünya azərbaycanlılarının xalqımızın ayrılmaz hissəsi kimi qəbul edilməsi, Azərbaycan Respublikasının bütün azərbaycanlıların Vətəni sayılması, həmvətənlərimizin əqidə və əməl birliyi zəminində elmi şəkildə formalaşması, lobbiçilik perspektivi, Azərbaycançılıq ideyasının dövlət siyasəti səviyyəsinə qaldırılması da məhz xalqımızın böyük oğlu Heydər Əliyev tərəfindən irəli sürülmüşdür.*

Ulu öndərimizin bütün fəaliyyəti, onun nurlu şəxsiyyətinin, möhtəşəm Azərbaycançılıq qayəsinin əbədiyaşar təcəssümüdür. Görkəmli dövlət xadimi Heydər Əliyev bu təlimin mahiyyətini belə dəyərləndirirdi: ***“Müstəqil Azərbaycan dövlətinin əsas ideyası Azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz Azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq”.***

Azərbaycançılıq ideologiyasının çoxşaxəli sistemində milli dil məsələləri xüsusi yer tutur. Hər bir xalqın milli varlığının təcəssümü, daşıyıcısı olan doğma dilin tərəqqisi, statusunun, işlənmə dairəsinin yüksək səviyyədə təsbit olunması müstəqil dövlət quruculuğu prosesində, milli-mənəvi həmrəyliyin təmin edilməsində ən vacib amillərdən biridir. Ulu öndərin Azərbaycançılıq təlimində ana dilinin roluna verilən qiymət, irəli sürülən dəyərli tövsiyələr bu baxımdan xarakterikdir.

Görkəmli dövlət xadimi milli dəyərlərimizin öyrənilməsini, qorunub-saxlanılmasını, inkişaf etdirilməsini əsas vəzifələrdən biri kimi irəli sürür və deyirdi ki, bunları qoruyub-saxlayan xalq həmişə müstəqillik yolu ilə getmək və müstəqilliyini qorumaq əzmində olacaqdır. Çünki milli dövlətçilik və milli dəyərlər arasında sıx bir daxili əlaqə vardır. Ulu öndər deyirdi ki, milli müəyyənliyi olmayan və özünü bir millət kimi dərk etməyən xalqın milli dövlətə də ehtiyacı ola bilməz. Belə ki, milli dövlət bir tərəfdən ərazinin və iqtisadi sərvətlərin qorunmasına xidmət edirsə, digər tərəfdən də milli dəyərlərin qorunmasının və müstəqil inkişafının təmin olunması məqsədi daşıyır.

Dahi rəhbər milli dəyərlər uğrunda mübarizənin önündə həmişə özü gedir və milli ziyalılarımızı da bu istiqamətdəki fəaliyyətə səfərbər edirdi. Ulu öndər milli mədəni abidələrimizin bərpasına, milli yaddaşın, milli köklərə qayıdışın sürətləndirilməsinə də istiqamət verir, milli dəyərlərimizi təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın – dövlət quruculuğu prosesinin mühüm atributu kimi qiymətləndirirdi. Mənsub olduğu xalqın tarixi keçmişinə, mədəni irsinə və milli dəyərlər sisteminə sönməz məhəbbət duyğularıyla yanaşan ulu öndər deyirdi: ***“Bizim hamımızı birləşdirən, hamıya edən Azərbaycançılıq ideyasıdır. Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir”.***

Ölkəmizə rəhbərliyinin ilk vaxtlarından başlayaraq dahi şəxsiyyətin milli dil, təhsil, tarix, mədəniyyət və incəsənətimizlə bağlı atdığı böyük addımlar Azərbaycanın gələcək müstəqilliyini təmin etməklə yanaşı, həm də Azərbaycançılıq ideologiyasının formalaşmasına öz töhfəsini vermişdir. Azərbaycanın müasir inkişaf təməli də məhz həmin illərdə qoyulmuş, ölkəmizin tərəqqisi alternativi olmayan Heydər Əliyev siyasi yolunun uğurla davam etdirilməsinin nəticəsində mümkün olmuşdur. Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyə gəlişinin 50 illiyi münasibətilə “Heydər Əliyev siyasi məktəbini öyrənirik” Gənc Liderlər Proqramı çərçivəsində muxtar respublikaya səfər edən gənclərlə görüşündə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***“Milli liderimizin canından əziz sevdiyi müstəqil, qüdrətli Azərbaycan Heydər Əliyev yolu ilə gedərək yaşayır, gündən-günə inkişaf edir, tərəqqiyə qovuşur və Azərbaycanda əldə olunan bütün nailiyyətlərdə Heydər Əliyevin işi və əməlləri bu gün də yaşayır. Zaman keçdikcə bu nailiyyətlər daha da artır. Çünki bu yolu Heydər Əliyev məktəbinin ən layiqli yetirməsi olan hörmətli İlham Əliyev davam etdirir”.***

Bəli, ölkə başçısı cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində Azərbaycan hərtərəfli inkişaf etməklə yanaşı, ölkəmizin nüfuzu da dünyada durmadan artır. Bu gün dövlətimizin qazandığı nailiyyətlər bir daha sübut edir ki, Azərbaycan düz yoldadır, onun daxili və xarici siyasəti davamlı, eyni zamanda dayanıqlı inkişaf üçün başlıca şərtdir. Ölkəmizin böyük sürətlə artan iqtisadi potensialı bütün problemlərimizin həllində, eləcə də dünya azərbaycanlıları ilə bağlı vəzifələrin həyata keçirilməsində güclü amildir. Azad, müstəqil Azərbaycan Respublikası 50 milyonluq bir millətin müqəddəs pənah yeri, doğma Vətənidir. Harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı öz güc və qüvvəsini tarixi haqqımız və milli nemətimiz olan Azərbaycan dövlətçiliyi uğrunda səfərbər etməlidir. Bunu bizdən vətəndaşlıq borcumuz, yaşadığımız zaman və milli taleyimiz tələb edir.

Müzəffər Ali Baş Komandan və rəşadətli Ordumuz 30 il ərzində işğalda olan torpaqlarımızı 44 günlük döyüş, 20 günlük isə siyasi-diplomatik vasitələrlə, cəmi 2 ay ərzində tam azad etməklə möhtəşəm zəfər tarixi yazdı. Ali Baş Komandanımızın qətiyyətli iradəsi nəticəsində siyasi müstəvidə qazandığımız digər uğurumuz isə Naxçıvan Muxtar Respublikasının quru yolu vasitəsilə uzun illər sonra yenidən doğma Azərbaycanımıza qovuşması olacaq. Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası ilə bağlı bəndlər regionun yeni nəqliyyat xəritəsinin konturlarını müəyyənləşdirir.

Bu gün ölkəmizdə bütün digər sahələrlə yanaşı, Azərbaycançılıq təliminin prinsiplərinin ardıcıl və hərtərəfli şəkildə həyata keçirilməsi sahəsində də ulu öndər Heydər Əliyevin kursuna dönmədən əməl olunur. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da bu sahədə ciddi, əhatəli, mühüm işlər görülmüş və görülməkdədir. Hazırda Naxçıvan ümummilli lider Heydər Əliyevin Azərbaycançılıq ideologiyasına istinadən möhtəşəm inkişafın və quruculuğun əsl parlaq təzahür meydanıdır. Muxtar respublikamızda milli dəyərlərimizin, milli tariximizin, ədəbiyyatımızın, mədəniyyətimizin və incəsənətimizin, adət-ənənələrimizin qorunması, zənginləşdirilməsi həmişə diqqət mərkəzində saxlanılmış və bu gün də təbliğ edilməkdə, gənc nəslə aşılanmaqdadır.

Ümummilli liderimiz Heydər Əliyev doğma Azərbaycanımız, Naxçıvan haqqında deyirdi: ***“İstəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin”.*** Böyük fəxrlə, qürur hissi ilə deyə bilərik ki, dahi rəhbərin bu diyarla bağlı arzu və istəkləri Qurucu Rəhbərin böyük diqqət və qayğısı ilə naxçıvanlılar tərəfindən sonsuz məhəbbətlə həyata keçirilərək yeni müstəviyə qədəm qoyub.

***Bütün bunlar onu göstərir ki, naxçıvanlılar ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlı olan sabitliyə və quruculuq işlərinə öz layiqli töhfəsini verməyə, nailiyyətləri daha da artırmağa çalışırlar. Bunun ifadəsidir ki, muxtar respublika özünün iqtisadi, sosial inkişaf sürətinə görə ölkənin regionları arasında lider mövqeyə yüksəlib. Muxtar respublikamızın keçdiyi yolu xarakterizə etmək, inkişaf dinamikasını görmək üçün real həyata baxmaq kifayətdir. Bu uğurların, bu nailiyyətlərin qədrini bilməliyik. Çünki bunlar müstəqillik dövründə, eyni zamanda blokada şəraitində qazanılıb. Ona görə də nailiyyətlərimizi daha da artırmalı, dövlət müstəqilliyimizi daha da möhkəmləndirməli, ümummilli liderimizin yolunu davam etdirərək muxtar respublikamızın quruculuq salnaməsini layiqli nümunələrlə zənginləşdirməliyik.***


**Qızıltac ŞAHBAZOVA**
*Naxçıvan Müəllimlər İnstitutunun dosenti,*
*Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi*


## Vəzifələr icra olunur

*Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi noyabr ayı ərzində də öz fəaliyyətini gücləndirmiş, qanunvericilikdən, mərkəzin Əsasnamə və iş planından irəli gələn vəzifələri icra etmişdir.*



Ötən ay ərzində Dövlət İmtahan Mərkəzi tərəfindən Dövlət Gömrük Komitəsində, Ədliyyə Nazirliyində çalışan işçilərin və dövlət musiqi təhsili müəssisələrində çalışan müəllimlərin attestasiyası üzrə test imtahanı keçirilmişdir. Qeydiyyatdan keçmiş 868 nəfərdən 819-u test imtahanında iştirak etmiş, 353-ü müvafiq keçid balını toplamışdır. Komissiya tərəfindən dövlət qulluğu və müəllimlərin işə qəbulu sahəsində təşkil olunmuş hazırlıq kurslarında, ümumilikdə, 53 nəfər, sınaq imtahanlarında 30 nəfər iştirak etmişdir.

14 oktyabr 2020-ci il tarixdə dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün elan edilmiş müsabiqəyə 205 vakant vəzifə çıxarılmışdır. Müsabiqənin sənəd qəbulu 21 noyabr tarixində başa çatmışdır. Test imtahanının keçirilməsi üçün hazırlıq işləri aparılır. AMEA Naxçıvan Bölməsinə və müəllimlərin dövlət ümumi təhsil müəssisələrinə işə qəbulu üçün elan edilmiş müsabiqələrin sənəd qəbulu davam etməkdədir.

Dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün keçirilmiş 6 müsahibədə komissiyanın əməkdaşlarının nümayəndə qismində iştirakları təmin edilmişdir.

“Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 3 aprel tarixli Sərəncamının icrasının təmin edilməsi məqsədilə 27 noyabr 2020-ci il tarixdə Naxçıvan Dövlət Universitetində komissiyanın əməkdaşları tərəfindən universitetin Dövlət və bələdiyyə idarəetməsi ixtisasının tələbələri üçün “Dövlət qulluğuna qəbul qaydaları” və “Azərbaycan Respublikasının Konstitusiyası dövlət qulluğuna dair qanunvericiliyin təməlidir” mövzularında seminar keçirilmişdir.

Keçirilən bütün tədbir və test imtahanlarında sosial məsafə qorunmuş, tibbi maskadan istifadə olunmuş və digər sanitar-gigiyenik tələblərə əməl edilmişdir.


*Naxçıvan Muxtar Respublikası*
*Dövlət İmtahan Mərkəzinin*
*mətbuat xidməti*

***Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev həyatımızın bütün sahələri ilə yanaşı, meliorasiya-irriqasiya tədbirlərinin həyata keçirilməsini də vacib və həyati əhəmiyyətli məsələ sayırdı. Çünki hər bir dövlətin iqtisadiyyatının gücləndirilməsində kənd təsərrüfatı mühüm yerə malikdir. Bu sahənin hərtərəfli inkişafında bir neçə amil başlıca rol oynayır. Həmin amillərdən biri də kənd təsərrüfatında suvarma suyuna olan tələbatın ödənilməsidir. Məhsuldar torpaq sahələrimizin hər qarışının əkilməsi, şoranlaşmanın qarşısının alınması, əhalinin yerli əkinçilik məhsullarına tələbatının daxili imkanlar hesabına ödənilməsi, ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər diqqətdə saxlanılırdı. Bu tədbirlər ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasını da əhatə edirdi. O dövrə qısa ekskurs etsək, görərik ki, əgər 1970-ci ilə qədər muxtar respublikada kiçik və az əhəmiyyətli bir neçə su anbarı yaradılıbsa, həmin ildən sonra ümumi tutumu 1 milyard 544 milyon kubmetr olan 20 su anbarı tikilib. Bütövlükdə, muxtar respublikada 1970-ci ildən sonra istifadəyə verilmiş su anbarları min hektarlarla torpaq sahəsinin suvarılmasına xidmət edib.***

# Meliorasiya və su təsərrüfatı ili uğurla başa vurur



Ulu öndər Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövrü meliorasiya və irriqasiya sahəsində həyata keçirilən tədbirləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov belə xarakterizə edir: ***“Muxtar respublikada istifadəyə verilən su anbarları və başqa əhəmiyyətli suvarma obyektləri məhsuldar qüvvələrin inkişafında mühüm rol oynamışdır... Həmin dövrdə görülən irimiqyaslı meliorasiya-irriqasiya tədbirləri məhsul bolluğuna təminat yaratmış, muxtar respublikanın kəndləri simasını dəyişmiş, adamların güzəranı yaxşılaşmışdır. Bir sözlə, muxtar respublikada iri sututarların, dəryaçaların inşa olunması, sadəcə, tikinti proqramlarının yerinə yetirilməsi demək deyildi. Bu, eyni zamanda uzun müddətə hesablanmış strateji proqram idi”.***

Ötən dövr ərzində muxtar respublikanın su təsərrüfatında həyata keçirilən tədbirlərin bəhrələrindən bəhs etmişik. Bu yazıda artıq başa çatmaqda olan 2020-ci ilin yanvar-noyabr ayları ərzində Naxçıvan Muxtar Respublikasının Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti tərəfindən görülmüş işlər barədə məlumat vermək istəyirik. Bəhs olunan dövrdə suvarma mövsümünün mütəşəkkil təşkili, suyun istifadəçilərə itkisiz çatdırılması məqsədilə cəmiyyətin tabe təşkilatları tərəfindən kanal və arxlarda lildən təmizlənmə işləri davam etdirilib, suvarılan sahələrdə qrunt sularının səviyyəsini aşağı salmaq tədbirləri diqqətdə saxlanılıb. Hidrotexniki qurğularda təmir-bərpa işləri yerinə yetirilib, yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasına və su ehtiyatlarından qənaətlə istifadəsində imkan verən müasir suvarma sistemlərinin quraşdırılması davam etdirilib.

Yanvar-noyabr ayları ərzində torpaq sahələrinin su ilə təminatının yüksəldilməsi və su itkisinin qarşısının alınması məqsədilə Babək rayonunda Heydər Əliyev Su Anbarından başlayan Yeni Sağ Sahil magistral kanalında təmir işləri yekunlaşdırılıb. Təmir işlərinin keyfiyyətlə aparılması diqqətdə saxlanılıb.

Muxtar respublikada mütərəqqi suvarma sistemlərinin tətbiqinə ciddi önəm verilir. Ötən illərdə bu istiqamətdə xeyli iş görülüb və cari ildə də həmin tədbirlər davam etdirilib. Bunun ifadəsidir ki, son illər Babək, Culfa, Kəngərli və Şahbuz rayonlarında dövlət vəsaiti hesabına 5 min hektardan artıq qapalı suvarma şəbəkəsi qurulub.

Yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması hesabına suvarılan torpaq sahələrinin genişləndirilməsi üçün Şahbuz rayonunun Türkeş kəndi ərazisində 275 hektar sahədə qapalı suvarma şəbəkəsi istifadəyə verilib. Burada görülən işlərlə bağlı Ali Məclisin Sədri deyib: ***“Şahbuz rayonunda torpaqların su təminatının yaxşılaşdırılması üçün, ümumilikdə, 3 milyon 200 min manata yaxın vəsait sərf olunmuşdur. Dövlətin bu sərmayəni yatırmaqda məqsədi torpaqlardan səmərəli istifadə etmək, məhsul bolluğu yaratmaq və yeni iş yerləri açmaqdır”.***



Cari ilin noyabr ayının 16-da isə Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 810 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi başa çatdırılıb. Suvarma şəbəkəsinin istifadəyə verilməsi münasibətilə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov deyib: ***“ Hər il qurulan qapalı suvarma sistemləri, nasos stansiyaları, eləcə də müxtəlif suvarma metodlarından – damcı və çiləmə üsullarından istifadə muxtar respublikada müasir suvarma şəbəkələrinin yaradılmasına imkan vermişdir. Müasir suvarma şəbəkələri məhsuldarlığın və gəlirlərin artması, torpaqların şoranlaşmasının qarşısının alınması və yeni iş yerlərinin yaradılması deməkdir. Torpaqların əkin dövriyyəsinə qatılması ailə təsərrüfatlarının inkişafına da böyük dəstək verəcəkdir”.***

Bu işlərin davamı kimi Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 339 hektar sahədə də qapalı suvarma şəbəkəsinin tikintisini aparmaq üçün müvafiq tədbirlər həyata keçirilib. Belə ki, tikinti aparılacaq sahənin sərhədlərinin müəyyənləşdirilməsinə, əraziyə müxtəlif diametrli boruların daşınmasına və digər hazırlıq işlərinə başlanılıb.

Bu dövrdə su istifadəçilərinə 256,56 milyon kubmetr su verilib, bunun müqabilində 216639 hektar torpaq sahəsi suvarılıb. Hazırda sutarlarda 60,09 milyon kubmetr su ehtiyatı var.

Bəhs olunan dövrdə 180,55 kilometr beton və torpaq kanal, 189 kilometr ara arxlar, 43,9 kilometr kollektor lildən təmizlənib, 23,5 kilometr içməli su, 1,1 kilometr kanalizasiya, 123,5 kilometr suvarma boru, 1 kilometr təzyiqli boru xətləri, 0,1 kilometr kaptaj, 2,9 kilometr açıq, 0,35 kilometr isə qapalı drenaj çəkilib, 48,2 kilometr mövcud içməli su, 0,81 kilometr kanalizasiya, 32,4 kilometr suvarma boru, 41 kilometr təzyiqli boru xətlərində, 2,6 kilometr kaptajda, 4,4 kilometr açıq, 0,4 kilometr qapalı drenajda təmir-bərpa işləri aparılıb.

Şahbuz rayonunda Daylaqlı-Şahbuz avtomobil yolunun kənarında, “Böyrək suyu” bulağının yaxınlığında salınmış yaşıllıq ərazisinin suvarma suyu ilə təminatını yaxşılaşdırmaq məqsədilə 200 metr, Külüs düzü ərazisində əkin üçün hazırlanan yeni torpaq sahəsində 5,2 kilometr yeni arx çəkilib. Həmin yaşayış məntəqəsinin ərazisində yeni nasos stansiyasının tikintisi və təzyiqli boru xəttinin quraşdırılması işləri davam etdirilib.

Son illərdə su təsərrüfatında həyata keçirilən tədbirlərin bir qolunu qrunt sularının, şoranlaşmanın qarşısının alınması, sahilbərkitmə işlərinin görülməsi təşkil edir. Bu baxımdan bəhs etdiyimiz dövr də istisna deyil. Həmin tədbirlərin nəticəsidir ki, Şərur rayonunda 231,4, Babək rayonunda 388,5, Sədərək rayonunda 10 hektar olmaqla, ümumilikdə, 629,9 hektar torpaq sahəsində qrunt sularının səviyyəsi aşağı salınıb, şoranlaşmanın qarşısının alınmasına nail olunub.

Arpaçay, Cəhriçay, Naxçıvançay vadilərində, Payız, Qahab və Axura selovlarında, ümumilikdə, 9,84 kilometr selə qarşı istiqamətləndirici bənd tikilib; bu isə həmin ərazilərdə olan torpaq sahələrinin sel sularının zərərli təsirindən qorunmasını təmin edib.

Qeyd edək ki, ötən dövr ərzində həyata keçirilən təmir-bərpa işləri mexaniki suvarma sahəsini də əhatə edib. Bunun ifadəsidir ki, mexaniki suvarma sahəsində müxtəlif markalı 3 yeni nasos, 2 vakuum nasosu, 8 elektrik mühərriki, 8 kompensator, 1 əks-klapan quraşdırılıb.

Muxtar respublikanın su təsərrüfatında istifadə etmək üçün yeni texnika və texnoloji avadanlıqlar gətirilməsi davamlı xarakter alıb. Həmin texnikalar meliorasiya-irriqasiya sistemlərinin müasirləşdirilməsi və maddi-texniki bazanın gücləndirilməsi sahələrində mühüm və həlledici rola malikdir. Su təsərrüfatı cari ildə də qayğı ilə əhatə olunub. Belə ki, Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında imzalanmış Texniki-İqtisadi Əməkdaşlıq haqqında Sazişə əsasən Çin Xalq Respublikasından gətirilərək Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə 17 adda 67 texnika və texnoloji avadanlıq verilib. Həmin avadanlıqlardan muxtar respublikada torpaq və su ehtiyatlarından səmərəli istifadə edilməsi, yeni hidrotexniki qurğuların tikintisi, mütərəqqi suvarma şəbəkələrinin qurulması, meliorativ tədbirlərin genişləndirilməsi və digər işlərin həyata keçirilməsi məqsədilə istifadə olunacaqdır.

Muxtar respublikamızda tarixi abidələr olan kəhrizlərimizdən səmərəli istifadə edilməsi diqqət mərkəzində saxlanılır, hər il həmin su mənbələrinin təmir edilməsinə böyük önəm verilir. Həmin tədbirlər bu ilin yanvar-noyabr aylarında da həyata keçirilərək 10 kəhrizdə təmir-bərpa işləri başa çatdırılıb, 5 kəhrizdə isə həmin işlər davam etdirilib.

Həm əkin sahələrinin suvarılmasında, həm də içməli su mənbəyi kimi istifadə edilən subartezian quyuları mühüm əhəmiyyətə malikdir. Bunu nəzərə alaraq ötən 11 ay ərzində 56 subartezian quyusuna yeni nasos quraşdırılmaqla 764-ü təmir olunub. Bundan əlavə, 3 subartezian quyusu balansa alınıb, 9 yeni subartezian quyusu tikilərək istifadəyə verilib.

Yanvar-noyabr ayları ərzində cəmiyyətin təmir sexləri də qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsində səylə çalışıb. Bu dövrdə 10 avtomaşın, 11 avtokran, 2 traktor, 18 ekskavator, 1 buldozer, 1 generator, 4 qazma aqreqatı, 190 su sayğacı, 15 elektrik mühərriki, 96 nasos hissəsi, 2 siyirtmə təmir edilib, 608 nasos və 8 müxtəlif maşın-mexanizm hissələri hazırlanıb.



Bir neçə ildir, inşasına başlanılan “Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması” layihəsi çərçivəsində Şərur rayonunda Cəlilkənddə içməli su sisteminin tikintisi başa çatdırılıb, müxtəlif diametrli plastik borularla 18,3 kilometr içməli su xətti çəkilib, ev birləşmələri aparılıb. 342 abonentlə müqavilə bağlanaraq sayğac quraşdırılıb, 2222 sakin fasiləsiz olaraq içməli su ilə təmin olunub. Şərur Şəhər Sutəmizləyici Qurğular Kompleksinin tikintisi başa çatıb. Sutəmizləyici qurğu saniyədə 236 litr sutəmizləmə gücünə malikdir və 27 min 700 istifadəçiyə xidmət edir.

Şərur rayonunun Sərxanlı kəndində 5,1 kilometr su, Babək rayonunun Nehrəm qəsəbəsi və Araz kəndində 50,46 kilometr su və 48 kilometr kanalizasiya, Ordubad rayonunda 0,7 kilometr su, 0,6 kilometr kanalizasiya, Sədərək rayonunda 26,24 kilometr su, 30,89 kilometr kanalizasiya, Kəngərli rayonunun Qarabağlar, Qabıllı, Yurdçu və Xok kəndlərində 74,4 kilometr su xətti çəkilib, 3 subartezian quyusu qazılıb.

Cəmiyyətin ötən dövrdəki fəaliyyəti torpaq mülkiyyətçilərinin kənd təsərrüfatının müxtəlif sahələrində yeni uğurlar qazanmasına, daxili bazarda yerli məhsulların bolluğunun yaradılmasına imkan verib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılması ilə bağlı tədbirlər haqqında” 2020-ci il 27 noyabr tarixli Sərəncamı, həmin sərəncamla təsdiq edilmiş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların artırılmasına dair Tədbirlər Planı” cəmiyyətin də qarşısında mühüm vəzifələr qoyub. Həmin vəzifələrin yerinə yetirilməsi isə daha böyük nailiyyətlərin əldə edilməsinə stimul olacaq.

**Muxtar MƏMMƏDOV**

## İstehlakçıların təbii qazla təchizatına ciddi nəzarət olunur

*Muxtar respublika əhalisinin enerji təhlükəsizliyinin təmin olunması Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidməti qarşısında mühüm vəzifələr qoyur. Bu vəzifələr noyabr ayında da xidmət tərəfindən təsdiq olunmuş iş planına əsasən ardıcıl şəkildə həyata keçirilmişdir. Belə ki, ötən ay yaşayış məntəqələrinin və istehsalat sahələrinin təbii qazla təminatının həyata keçirmək üçün bir sıra işlər görülmüşdür.*

Hesabat ayında muxtar respublikanın şəhər və rayonlarından daxil olan müraciətlərə əsasən “Naxçıvanqaz Servis” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 156 mənzil (ev) və müxtəlif təyinatlı obyektlər qazlaşdırılmışdır ki, bunun 146-sı əhali və 10-u qeyri-əhali abonentlərdir. Naxçıvan şəhərində mexaniki qaz sayğaclarının smart-karttipli qaz sayğacları ilə əvəz olunması istiqaməti üzrə işlər davam etdirilmiş, 1 dekabr 2020-ci il tarixə cəmi 20 min 454, o cümlədən cari ilin noyabr ayında 36 qaz sayğacı quraşdırılmışdır. Bu işlər davam etdirilir.

Noyabr ayında Qaz İstismar Xidmətinə tabe şəhər, rayon Qaz İstismar idarələrinin qəza-dispetçer sahələrinin 24 saat aktiv olan ***104*** nömrəli qaynar xəttinə təbii qaz istehlakçılarından qazsızması, qaztənzimləyicilərin nizamlanması, elektron sayğacların kilidə düşməsi və qəza-bərpa işlərinə görə, ümumilikdə, 1141 çağırış daxil olmuşdur. Ay ərzində muxtar respublika qaz şəbəkəsində 582 ədəd qazsızması aşkarlanmış, texniki istismar və təhlükəsizlik qaydalarının tələblərinə müvafiq olaraq aradan qaldırılmışdır. Yeni qaz boru xətlərinin quraşdırılması, yenidənqurma, abadlıq işlərinin görülməsi zamanı qaz boru xətlərinin yerinin dəyişdirilməsi, yaşayış binalarında təmir-tikinti, korroziyaya uğramış yeraltı yol, qapı keçidlərinin yerüstü keçidlərlə əvəz edilməsi işlərinin görülməsi üçün müxtəlif diametrli polietilen və dəmir borulardan istifadə olunmuşdur. Yerli Qaz İstismar idarələrinin işçiləri tərəfindən qaz cihazlarından təhlükəsiz istifadə qaydaları haqqında abonentlər arasında maarifləndirmə və izahat işi aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidməti***

*Təhsil millətin gələcəyidir*

# Rezidentura təhsili peşəkar həkim hazırlığında əhəmiyyətli rol oynayır



***Muxtar respublikamızda təhsilin və səhiyyənin inkişafı sahəsində aparılan genişmiqyaslı tədbirlər ixtisaslı tibbi kadrların hazırlanması işində mühüm rol oynayır. Diyarımızda ixtisaslı həkim hazırlığında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü və ümummilli liderimiz Heydər Əliyevin himayəsi ilə 1999-cu ildə Naxçıvan Dövlət Universitetində fəaliyyətə başlayan Tibb fakültəsinin rolu danılmazdır.***

Ötən 20 ildə fakültədə lazımi şərait yaradılıb, yeni xəstəxana inşa olunub, muxtar respublikanın səhiyyə müəssisələrində auditoriyalar qurulub, müasir standartlara cavab verən və son texnologiyalarla təmin olunan yeni fakültə binası kollektivin istifadəsinə verilib. Burada təhsil alan tələbələr ixtisaslarına uyğun olaraq Naxçıvan Muxtar Respublikasının müvafiq xəstəxanalarından baza xəstəxanası kimi istifadə edirlər. Kliniki dərslərin əksəriyyətini xəstəxanalarda, bilavasitə xəstələr üzərində keçmələri onlarda praktik vərdişlərin formalaşmasına müsbət təsir göstərir. Fakültənin məzunları səhiyyə müəssisələrinin həkim kadrlarına olan tələbatını ödəyir, onlar dünyanın bir çox ölkələrində də həkim kimi fəaliyyət göstərirlər. Tibb fakültəsinin beynəlxalq əlaqələri xarici ölkə vətəndaşlarının da burada təhsil almaq üçün müraciətlərinin sayını artırır.

Bu gün Tibb fakültəsinin nəzdində rezidentura təhsil pilləsi üzrə həkim-rezident hazırlığının aparılması isə peşəkar həkim kadrların yetişdirilməsində əhəmiyyətli rola malikdir. Naxçıvanda rezidentura təhsilinin təşkili barədə Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin dekanı, rezidentura üzrə məsul şəxs Elsevər Əsədovla həmsöhbət olduq.

Müsahibim bildirdi ki, Naxçıvan Dövlət Universitetində rezidentura təhsil pilləsi üzrə qəbul 2012-ci ildən aparılır. Qəbul edilən həkim-rezidentlərlə əmək müqaviləsi bağlanır və onlar 1 həkim ştatına müvafiq əməkhaqqı ilə təmin olunurlar. Hər bir rezidentin fəaliyyəti ona təhkim olunan kuratorun rəhbərliyi ilə həyata keçirilir. Rezidentlər ixtisaslarına aid proqramlara və iş planlarına müvafiq olaraq fəaliyyətlərini qurur, rotasiyalarını həyata keçirirlər. Rezidentura təhsili dövrü həkim-rezidentlərimiz iş planlarına müvafiq olaraq ölkəmizin və Türkiyə Respublikasının yüksəksəviyyəli xəstəxanalarında təcrübədə olurlar ki, bu da onların öz bilik və bacarıqlarının artırılmasında çox mühüm əhəmiyyət daşıyır. 2020-ci ildə Almaniyada təcrübə keçən həkim-rezidentimiz də olub. Gələcəkdə xarici ölkələrdə rotasiyaların daha da genişləndirilməsinin həkim-rezidentlərimizin dünyada tibb elminin yeniliklərinə yiyələnməsində çox faydalı olacağını düşünürük. Bu, xüsusilə Türkiyə Respublikasının əməkdaşlıq etdiyimiz universitetləri ilə bağlanmış müqavilələrdə öz əksini tapmaqdadır.

Müsahibim onu da vurğuladı ki, Naxçıvan Dövlət Universitetindən bu günə qədər 50-dək  rezident məzun olub. Onlar Səhiyyə Nazirliyinin təyinatı əsasında müvafiq işlə təmin edilirlər. Rezident məzunlarımız müxtəlif xəstəxanalarda çalışmaqla, xüsusilə pandemiya dövrü fəallıq göstərmiş, infeksion xəstəliklə mübarizədə həkim kollektivi ilə çiyin-çiyinə çalışmışlar. Hazırda ali təhsil müəssisəsinin rezidentura pilləsində 21 ixtisas üzrə kadr hazırlığı aparılır. 2020-ci ildə rezidentura təhsil pilləsinə daxil olan 16 nəfər həkim-rezident adını qazanıb. Cari ilin oktyabrında rezidenturaya qəbul olunanlarla birlikdə, hazırda 65 həkim-rezidentimiz var. Eyni zamanda bu il 13 rezident məzun olacaqdır ki, bunlardan 3-ü muxtar respublika sakinidir. Məzunların 14 nəfəri isə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin təyinatı əsasında respublikamızın müxtəlif regionlarında ixtisaslı həkim kimi fəaliyyətlərini davam etdirəcəklər. Noyabr ayında məzun olan rezidentlərin attestasiyası keçirilib. Yaxın gələcəkdə Tibb ixtisası məzunu olan əcnəbi vətəndaşların da rezidenturaya qəbulunun aparılması nəzərdə tutulur.



Rezidentura üzrə təhsilini davam etdirən və ya başa vuraraq müxtəlif səhiyyə müəssisələrində çalışan həkim-rezidentlərlə də həmsöhbət olduq.

Sarita Qənbərli Şahbuz rayonundandır. Müsahibim adıçəkilən təhsil ocağının Tibb fakültəsində Müalicə işi ixtisası üzrə ali təhsil alıb. Onun dediklərindən:

– Rezidentura təhsili hər kəsin istədiyi ixtisası seçməsi və ona mükəmməl yiyələnməsi üçün  elmi və praktik cəhətdən çox əlverişlidir. Mən Anesteziologiya və reanimatologiya ixtisası üzrə rezidentura təhsili almışam. Həmin ixtisas üzrə  hazırlanmış proqramın əsas məqsədi praktik təbabət üçün sərbəst fəaliyyət göstərən və gələcəkdə elmi-tədqiqat fəaliyyətini davam etdirə bilən həkim-mütəxəssis yetişdirməkdir. Təhsil aldığım 3 il müddətində Naxçıvan Muxtar Respublika Xəstəxanasında işləyib həm elmi, həm də praktik vərdişlərə yiyələndim. Naxçıvan Dövlət Universitetinin və təcrübədə olduğum xəstəxananın təşkil etdiyi elmi-praktik konfranslarda iştirak etdim. Bütün bunlar elmi cəhətdən daha çox bilik əldə etmək, öyrəndiklərimi təcrübədə möhkəmləndirmək baxımından çox faydalı oldu. Hazırda Naxçıvan Muxtar Respublika Xəstəxanasında həkim-anestezioloq-reanimatoloq vəzifəsində çalışıram. Tibbi praktikada tətbiqinə icazə verilmiş müasir profilaktika, diaqnostika, müalicə və reabilitasiya metodlarından istifadə etməklə peşəkar səviyyədə xəstələrimizə tibbi yardım göstəririk. Bu sahə üzrə yenilikləri öyrənib tətbiq etmək üçün çalışıram, peşəkar həkim kimi formalaşıb insan sağlamlığına töhfə verməyə çalışıram.

Azərbaycanın Şirvan bölgəsindən olan Mahmud Nəsirov isə Azərbaycan Tibb Universitetinin Pediatriya fakültəsinin məzunudur. O deyir ki, 2015-ci ildə Naxçıvan Muxtar Respublika Xəstəxanasında Travmatologiya-ortopediya ixtisası  üzrə təcrübə keçməyə başlayıb. Bu sahə əzələ-skelet sisteminin qazanılmış və ya travmalarla əlaqədar xəstəliklərini tanımaq, onların həllini tapmaq, müalicə etmək və xəstələrin səhhətinə qovuşmasını təmin etmək üçün lazım olan bütün elmi-təcrübi bilikləri özündə birləşdirir. Rezidentura təhsilim müddətində Türkiyənin Kocaeli Təhsil və Araşdırma Xəstəxanasında ixtisasartırma kursunda olmuşam, müxtəlif elmi-praktik konfranslarda iştirak etmişəm. Hazırda Naxçıvan Muxtar Respublika Xəstəxanasında həkim-travmatoloq vəzifəsində çalışıram.

Müsahibim deyir ki, Naxçıvanda həkim hazırlığı prosesində yalnız nəzəri biliklər öyrədilmir. Burada təhsil alan tələbələr muxtar respublikanın səhiyyə müəssisələrində və fakültənin xəstəxanasında təcrübələrə cəlb olunur, praktik dərslərdə iştirak edir, bir sıra şəhərlərdə, eləcə də Türkiyə, Almaniya kimi xarici ölkələrin müxtəlif xəstəxanalarında təcrübə keçməklə peşə vərdişlərini artırırlar. Bu, Naxçıvanda rezidentura təhsilinin əsas üstünlüyüdür. Onu da deyim ki, muxtar respublikanın səhiyyə müəssisələrində, eləcə də Tibb fakültəsində ən son tibbi texnologiyalar tətbiq olunur. Belə ki, biz gələcəyin həkimi kimi müasir tibbi avadanlıqlardan istifadə vərdişlərinə də yiyələnir, müayinə və müalicə prosesində yeni texnologiyaların tətbiqini öyrənmək imkanları əldə edirik. Yaradılan müasir şərait gələcəyimizə göstərilən böyük qayğıdır.

Digər bir həkim-rezident Rəmziyə İsmayılova Şəki şəhərindəndir. 2009-cu ildə Azərbaycan Tibb Universitetini Terapevt ixtisası üzrə bitirib. Müsahibim bildirir ki, terapiya səhiyyənin geniş sahəsi olduğundan gələcəkdə bu sahə üzrə yaxşı mütəxəssis kimi formalaşmaq üçün rezidentura təhsili almaq qərarına gəldim. 2019-cu ildə imtahan verərək Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin nəzdində rezidentura pilləsi üzrə Şüa diaqnostikası ixtisasına daxil oldum. Hazırda həmin ixtisas üzrə II kursda təhsil alıram. Bu, özündə tibbin kompleks diaqnostik müayinələrini birləşdirən bir sahədir. Bu müayinələr damar, sümük, yumşaq toxuma, beyin və digər daxili orqanların vəziyyəti, funksiyası haqqında ətraflı məlumat əldə etməyə



imkan yaradır. Burada təhsil almağımın əsas səbəbi isə ixtisasıma dərindən yiyələnmək üçün yaradılan müasir şəraitdir. Muxtar respublikanın səhiyyə müəssisələrində, istərsə də Tibb fakültəsində yaradılan şərait səmərəli fəaliyyət göstərməyə, peşəkar həkim kimi formalaşmağa imkan verir. Tibb fakültəsinin şəxsi heyəti, klinika rəhbərləri və kuratorları daha yaxşı öyrənməyim üçün əllərindən gələni əsirgəmirlər. Bizim gələcəyə hərtərəfli hazırlanmağımız, peşəkar kadr kimi formalaşmağımız üçün şərait yaradanlara minnətdaram. Bu şəraitdən düzgün və səmərəli istifadə etmək, yaxşı bir həkim kimi formalaşıb xalqımızın sağlamlığı keşiyində dayanmaq isə ən böyük arzumdur.

*Müsahiblərimizin də söhbətlərindən aydın oldu ki, muxtar respublikamızda səhiyyənin inkişafına göstərilən davamlı dövlət qayğısı öz peşəsinə məsuliyyətlə yanaşan təcrübəli həkimlərin sayını artırır.*

**Güntac ŞAHMƏMMƏDLİ**

*Muxtar respublika fənn olimpiadasının və “Ürəklərdə yaşayan dahi” mövzusunda inşa yazı müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.*

# Olimpiada və müsabiqə qalibləri mükafatlandırılıb



Tədbirdə Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov çıxış edərək bildirib ki, olimpiadaların keçirilməsi xüsusi istedadlı uşaqların üzə çıxarılmasında, şagirdlərdə fənlərə olan marağın artırılmasında, onların sağlam rəqabət mühitində öz bilik və bacarıqlarını nümayiş etdirmələrində və peşə seçiminə hazırlanmasında mühüm rol oynayır.

Qeyd edilib ki, məktəblilərin muxtar respublika fənn olimpiadası iki mərhələdə keçirilib. IX-XI sinif şagirdləri arasında müvafiq fənlər  üzrə olimpiadanın I şəhər və rayon mərhələsində 986 şagird öz biliyini sınayıb, onlardan 611-i yüksək nəticə göstərərək final mərhələsində iştirak etmək hüququ qazanıb. Nəticələrə əsasən noyabrın 28-də keçirilən olimpiadanın final mərhələsində, ümumilikdə, 11 şagird I, 11 şagird II və 20 şagird III yerlərin qalibi olub.

Diqqətə çatdırılıb ki, ümummilli lider Heydər Əliyev irsinin gənc nəslə öyrədilməsi, məktəblilərə Vətənə sevgi və məhəbbət hisslərinin aşılanması və gənc nəslin vətənpərvərlik ruhunda tərbiyələndirilməsi istiqamətində silsilə tədbirlərin davamı olaraq dekabrın 11-də “Ürəklərdə yaşayan dahi” mövzusunda inşa yazı müsabiqəsi keçirilib. Müsabiqədə muxtar respublika ümumtəhsil məktəblərinin IX-XI siniflərində təhsil alan 34 şagird iştirak edib. Onlardan 1 nəfər I, 2 nəfər II, 3 nəfər III, 3 nəfər isə həvəsləndirici yerlərin qalibi olub.

Təhsil naziri olimpiada və inşa yazı müsabiqəsinin qaliblərini təbrik edib, onlara təhsillərində uğurlar arzulayıb.

Digər çıxışlardan sonra olimpiada qaliblərindən Heydər Əliyev adına Hərbi Liseyin II kurs kursantı Tahir Məhərrəmov, “Ürəklərdə yaşayan dahi” mövzusunda keçirilən inşa yazı müsabiqəsinin qalibi, Heydər Əliyev adına tam orta məktəbin XI sinif şagirdi Aysun Cəfərli yaradılan şəraitə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıqlarını bildiriblər.

Sonda qaliblərə diplom və hədiyyələr təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# Ailə dəyərlərinə həsr olunmuş müsabiqələr yekunlaşıb



***“İdeal ailənin formulu: ənənəvi dəyərlər və müasirlik” mövzusunda VII muxtar respublika yazı, dekorativ-tətbiqi sənət və rəsm müsabiqəsi və “Ailə dəyərlərimiz film və fotolorda” mövzusunda V muxtar respublika yaradıcılıq müsabiqəsinin qalibləri müəyyən olub.***

Dünən Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Gənclər Fondu və Rəssamlar Birliyi tərəfindən orta ixtisas və ali təhsil müəssisələrinin tələbələri və istedadlı gənclər arasında “İdeal ailənin formulu: ənənəvi dəyərlər və müasirlik” mövzusunda VII muxtar respublika yazı, dekorativ-tətbiqi sənət və rəsm müsabiqəsi və “Ailə dəyərlərimiz film və fotolorda” mövzusunda V muxtar respublika yaradıcılıq müsabiqəsinin qalibləri mükafatlandırılıb.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova tədbiri giriş sözü ilə açaraq bildirib ki, muxtar respublikada həyata keçirilən sosial-iqtisadi siyasət ailələrin rifahının yaxşılaşdırılmasına, sağlam əsaslar üzərində qurulmasına, onların sosial müdafiəsinin gücləndirilməsinə, uşaq və  gənclərin  hərtərəfli inkişafına xidmət edir.

Vurğulanıb ki, muxtar respublikada  ailə  dəyərlərinin  yaşadılması istiqamətində silsilə tədbirlər görülür. Adıçəkilən müsabiqələrin keçirilməsi də görülən işlərin məntiqi davamıdır.

Komitə sədri muxtar respublikada ailələrə göstərilən yüksək diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova minnətdarlığını bildirib.

AMEA Naxçıvan Bölməsinin əməkdaşı, dosent Asəf Orucov keçirilən müsabiqələrin gənclər üçün əhəmiyyətindən danışıb.

Tədbir iştirakçılarına məlumat verilib ki, “İdeal ailənin formulu: ənənəvi dəyərlər və müasirlik” mövzusunda VII muxtar respublika yazı, dekorativ-tətbiqi sənət və rəsm müsabiqəsinə, ümumilikdə, 121 iş təqdim edilib. Müsabiqədə 11 nəfər yaradıcı şəxs diplom və hədiyyələrlə təltif olunub. “Ailə dəyərlərimiz film və fotolorda” mövzusunda V muxtar respublika yaradıcılıq müsabiqəsinə isə, ümumilikdə, 64 film və foto təqdim edilib. Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən müsabiqə qaliblərindən 2 nəfər I, 2 nəfər II, 2 nəfər III yer tutanlara  pul mükafatları, 4 nəfər həvəsləndirici yer tutmaqla hər birinə hədiyyə və diplomlar təqdim olunub.

Sonda müsabiqəyə təqdim edilmiş fotolardan ibarət videoçarxa baxış olub, “Ən yaxşı film” nominasiyası üzrə I yerə layiq görülmüş film izlənilib, həmçinin rəsm və əl işlərindən ibarət sərgiyə baxış olub.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Gün həmin gün idi...



*II Qarabağ savaşı başlayan vaxtdan Naxçıvandan bir qrup hərbçi döyüş bölgələrinə yollanır. Gedə bilməyənlər getmək üçün yaman təlsir, öz sıralarını səbirsizliklə gözləyir. Getməyini gözləyənlərin sayı ümumi hərbçilərimizin sayı qədər idi. Bir sözlə, yaşından, başından asılı olmayaraq, hər kəs idi. Hərb peşəsinin bəxş etdiyi xüsusi Vətən sevgisi bütün hərbçilərimizi döyüş bölgələrinə səsləyirdi. Çünki "gün bu gündür" dedikləri gün elə həmin gün idi. Heyifləri çıxmaq, müharibədə düşmənlə vuruşub haqqı olanı almaq.*

*Naxçıvandakı hərbçilər də döyüş bölgəsinə getmək üçün səbirsizlənirdilər. Hər gün bir-birlərinə sual verirdilər: "Biz nə vaxt gedəcəyik?" Sanki gedə bilməyənlər də özlərini günahkar hiss edirdilər. O sualı daha tez-tez verənlər cərgəsində Tağı Kərimov da vardı. Sonrakı mərhələdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2020-ci il 20 noyabr tarixli Sərəncamına əsasən "Döyüşdə Fərqlənməyə" görə medalı ilə təltif olunacaq Tağı Kərimov.*



Naxçıvan "N" hərbi hissənin kəşfiyyatçı snayperçisi. 1992-ci il təvəllüdlü snayperçi 2014-cü ildən hərbçi kimi, Türkiyədə təməl snayperçi, antimaterial snayperçi, mütəxəssis snayperçi kimi əhəmiyyətli kursları uğurla başa vurur. Həmçinin bu siyahıya hərbi təlimlərdə iştirakını, Günnüt əməliyyatı zamanı Naxçıvanın strateji yüksəkliklərinin alınmasında xidmətlərini də əlavə edə bilərik. Bütün Vətən həsrəti daşıyan igidlər kimi, o da döyüşə qatılacağı zamanı çoxdan gözləyirdi. Tağının arzusu gerçəkləşir. Oktyabrın 11-i bir qrup hərbçinin hərbi hissəyə olan ziyarəti döyüş bölgəsinə getməyin siqnallarını verir. Tağı hazırlaşır və gün həmin gün olur. Yolboyu sevincdən gözlərini yuma bilmir. Döyüşdə iştirak etməyin qürurunu yaşayır. Döyüş bölgəsinə yollanırlar.

Bu torpaqların işğal altına düşməsi elə onun dünyaya gəldiyi ilə təsadüf edirdi. İllərdir, içində bəslədiyi düşmənə qisas hissi, erməni vəhşiliyi, düşmənə zərbə endirmək məqamı üçün hərbçi olmağına işarə vermişdi.

Tağı Kərimov: – Həmin gün illərin acısının yox olduğu gün idi. Həsrətində olduğum torpaqlara ayağım dəydiyi üçün naxçıvanlı bir igid kimi qürur duyurdum. Döyüşə Hadrutla başladıq. Snayperçi kimi "Şahinlər" adlandırılan bölüyün aparıcı üzvlərindən biri idim. Polkovnik-leytenant Anar Əliyevin şəhidolma xəbəri gəlmişdi ki, həmin vaxt əlimizə düşməni öldürmək fürsəti düşdü. Füzuli şəhərinin Düdükçü kəndi istiqamətində düşmən hiylə işlədərək 9 nəfərlik yüksək rütbəli zabiti "Maz" markalı maşını vasitəsilə əks-təxribat törətmək üçün yola düşmüşdü. Həmin maşından xəbərdar olub hədəfi yerindəcə nişan aldıq. Baxış zamanı məlum oldu ki, ermənilərə məxsus polkovnik, polkovnik-leytenant, mayor, kapitan kimi hərbi rütbəlilərdən ibarət heyəti aparırmış bu vurulan maşın. Komandamız tərəfindən Anar Əliyevin intiqamı elə həmin gün, həmin saat alındı. Bildiyiniz kimi, müharibənin aclığı, yorğunluğu mütləq olur. Bizim "Şahinlər" isə heç nəyə məhəl qoymadan irəliləyirdi. Kilometrlərlə yol getmək təsəvvür etdiyinizdən də çətindir. Amma biz bu məsafələrin öhdəsindən çox asanlıqla gəlirdik.

Uzun kilometrlərdən sonra oktyabrın sonunda Şuşa şəhərinin Daşaltı kəndində önəmli hesab edilən 1556 yüksəkliyinə çatdıq. Bu yüksəklik Şuşa üçün çox vacib hesab edilirdi. Üç gün mühasirə müddətində Şuşada yaşayan mülki əhaliyə çıxmaq üçün imkan verildi. Həmin gün icra olunan əməliyyatın gedişində yaxınlıqda partlayan mərmi səslərindən bölüyümüzdə bir çoxunun eşitmə problemləri yaranmışdı. Birdən Daşqın Tağıyev pıçıldadı: "Səs gəlir. Silaha sarılın. Erməni dəstəsi görünür". "Şahinlər" olaraq bir çox düşmən öldürsək də, aralarından qaçanlar da oldu. Düşmənlər təxribat törədərək mina və digər partlayıcı maddələr atdılar. Noyabrın 3-ü baş tutan bu əməliyyat nəticəsində Elvin Sadiqov, Şirxan Xanməmmədov, Seymur İbrahimov və başqaları şəhid oldu. Mən isə yaralanmışdım. Döyüşçü yoldaşım Şirxan Xanməmmədov və Seymur İbrahimovun yanında idim. Ayaq, bel, kəllə-beyin travması ilə bir neçə saat huşumu itirmiş vəziyyətdə oldum. Səhərüzü 7-də gözümü Hadrutdakı xəstəxanada açdım. Az keçmədi, Şuşa qələbəsini, Zəfər xəbərini xəstəxanada sevinclə qarşılayanlardan biri də elə mən oldum.

*Bu gün canları, qanları, sağlamlıqları bahasına Vətən torpaqlarını azad edən belə naxçıvanlı igidlərimiz çoxdur. Onların bu azadlıq mücadiləsi isə şanlı zəfər tariximizin hər zaman qürurla oxunacaq parlaq səhifələridir.*

**✍ Türkan HÜSEYNLİ**

*Naxçıvan Dövlət Universitetinin Memarlıq, Geodeziya və xəritəçəkmə mühəndisliyi ixtisaslarında təhsil alan tələbələr üçün Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin bazasında noyabrın 16-dan təşkil olunan istehsalat təcrübəsi başa çatıb.*

# Tələbələrin istehsalat təcrübəsi başa çatıb

Təcrübənin yekununa dair tədbirdə çıxış edən xidmətin rəisi Müslüm Cabbarzadə əmək bazarının tələblərinə uyğun kadr hazırlığının həyata keçirilməsində, tələbələrin bacarıqlı mütəxəssis kimi formalaşmasında istehsalat təcrübələrinin əhəmiyyətindən, muxtar respublikamızda bu cür təcrübələrin təşkili üçün yaradılan şəraitdən danışıb.



Sonra müvafiq təcrübə rəhbərlərinin istehsalat təcrübəsinin təşkili və gedişi ilə bağlı fikirləri, tələbələrin təəssüratları dinlənilib.

Qeyd edək ki, istehsalat təcrübəsi zamanı tələbələrə xidmətin fəaliyyəti ilə bağlı geniş məlumat verilib, peşəkar mütəxəssislər tərəfindən daşınmaz əmlak obyektlərinin və torpaq sahələrinin ölçülməsi, sxematik planların və tikinti layihələrinin, daşınmaz əmlak obyektlərinə dair texniki sənədlərin hazırlanması ilə bağlı praktik məsələlərin həlli öyrədilib. Təcrübəçi tələbələrin yüksək dəqiqlikli geodeziya alətləri vasitəsilə planaalma işlərinin aparılması, çöl ölçmələri nəticəsində əldə edilmiş məlumatların köçürülməsi və emalı, plan və xəritələrin hazırlanması prosesində iştirakı təmin edilib.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

# "Məhkəmə statistikası" mövzusunda seminar olub

*Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə 2020-ci hesabat ilinin başa çatması, məhkəmə fəaliyyətinə dair statistik hesabatların tərtib edilməsi və onların ümumiləşdirilməsi məqsədilə seminar keçirilib.*

Seminarda nazirliyin şöbə rəisi, baş ədliyyə müşaviri Səttar Zamanov çıxış edərək bildirib ki, məhkəmə statistikası hesabat dövrü ərzində məhkəmələrin icraatında olan işlərin ümumiləşdirilməsi, təhlil edilməsi və onların təsnifatının müəyyənləşdirilməsi üçün aparılır. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununa əsasən muxtar respublikada birinci instansiya məhkəmələri tərəfindən yarımillik və illik statistik hesabatlar tərtib edilərək nazirliyə təqdim edilir. Məhkəmələrin fəaliyyətlərinə dair statistika hesabatlarının tərtib edilməsi, eləcə də bu sahədə yenilikləri və bilikləri təkmilləşdirmək məqsədilə hər hesabat dövrünün sonunda nazirlik tərəfindən seminarlar təşkil olunur.

Nazirlik tərəfindən məhkəmə fəaliyyətinə dair statistik hesabat formalarının işlənilməsi diqqətdə saxlanılır, bununla bağlı tədbirlər görülür və yeniliklər qanunvericiliyin tələblərinə uyğunlaşdırılır.

Seminarda tədbir iştirakçılarını maraqlandıran məsələlərə aydınlıq gətirilib və onlara statistik hesabat formaları təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

# "Qarabağ Azərbaycandır!" adlı rəsm müsabiqəsinə yekun vurulub

Bəhruz Kəngərli adına Sərgi Salonunda tələbələrdə vətənpərvərlik, Vətənə məhəbbət hisslərinin yüksəldilməsi, istedadlı gənclərin üzə çıxarılması, onların bacarıqlarının təkmilləşdirməsi, rəşadətli Ordumuzun İkinci Qarabağ müharibəsindəki şücaətini gənc rəssamların gözü ilə hər kəsə çatdırmaq üçün ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında "Qarabağ Azərbaycandır!" adlı rəsm müsabiqəsi keçirilib.



Əvvəlcə, Rəssamlar Birliyinin baş fond mühafizi Nizami Alıyev, Gənclər və İdman Nazirliyinin əməkdaşı İlahə Haqverdiyeva, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Cavid İsmayılov çıxış edərək xalqımızın işğalçı düşmən üzərindəki tarixi qələbəsinin əhəmiyyətindən danışıblar. Bildiriblər ki, Naxçıvan gənclərinin də Vətən müharibəsində göstərdiyi qəhrəmanlıqlar, onların vətənpərvərliyi, Vətənə, elə bağlılığı, hünəri, qorxmazlığı burada yaradılan şəraitin, aparılan dövlət gənclər siyasətinin bəhrəsidir.

Məlumat verilib ki, təşkil olunmuş müsabiqəyə istedadlı gənclər tərəfindən 26 müəllifin 40 rəsm əsəri təqdim olunub.

Müsabiqədə münsiflər heyəti tərəfindən Naxçıvan Dövlət Universitetinin tələbəsi Türkan Əsədova, Naxçıvan Dövlət Texniki Kollecinin tələbəsi İnci Qənbərova qalib adına layiq görülüblər. Müsabiqənin qalibləri, II və III yerə layiq görülənlər, digər iştirakçılar təşkilatçılar tərəfindən diplom, fəxri fərman və qiymətli hədiyyələrlə təltif ediliblər.

Qeyd edək ki, müsabiqə Gənclər və İdman Nazirliyinin, Rəssamlar Birliyinin və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə keçirilib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan Dövlət Universitetində "Oxunması zəruri olan kitablar Siyahısı"na daxil edilən "Kitabi-Dədə Qorqud" dastanının müzakirəsi keçirilib.*

# Kitab müzakirəsi keçirilib



Müzakirəni giriş sözü ilə açan Elmi Kitabxananın direktoru Fariz Əhmədov qeyd edib ki, "Kitabi-Dədə Qorqud" Azərbaycanın ana kitabı, ümumtürk mədəniyyət abidəsi, dünya mədəniyyət xəzinəsinin nadir incilərindəndir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Oxunması zəruri olan kitablar haqqında" 2017-ci il 28 avqust tarixli Sərəncamına əsasən oxunması tövsiyə edilən ən qiymətli əsərlərdəndir.

Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrasının dosenti İman Cəfərov çıxışında ulu öndər Heydər Əliyevin 1997-ci il aprelin 20-də "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi haqqında imzaladığı Fərmanın, ölkə başçısı cənab İlham Əliyevin "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında" 2015-ci il 20 fevral tarixli Sərəncamının tarixi-mədəni irsimizin yaşadılması və təbliği baxımından əhəmiyyətindən danışıb.

Müzakirədə, həmçinin diqqətə çatdırılıb ki, 1999-cu ildə Naxçıvan şəhərində Dədə Qorqud parkının yaradılması, Dədə Qorqudun heykəlinin ucaldılması, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 25 iyul tarixdə imzaladığı Sərəncamla "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin diyarımızda da geniş qeyd edilməsi və dastanın oxunması zəruri ədəbiyyat kimi tövsiyə olunması milli-mənəvi irsə verilən yüksək qiymətin təzahürüdür.

**Elmir TAĞIYEV**
***Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə II kurs tələbəsi***

# Maarifləndirici tədbir

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu publik hüquqi şəxsin Kəngərli rayon şöbəsi pensiyaçılara göstərilən xidmətlərin keyfiyyətinin artırılması üçün tədbirlər həyata keçirir, onların rahatlığının təmin olunması istiqamətində işləri davam etdirir. Şöbə tərəfindən yeni tikilib istifadəyə verilən, müasir standartlara uyğun Kəngərli Rayon Rabitə Evinin iclas zalında növbəti maarifləndirici tədbir keçirilib.



Tədbirdə fondun Kəngərli rayon şöbəsinin müdiri Aqşin Əliyev çıxış edərək vurğulayıb ki, rayonda pensiyaların poçt bölmələri vasitəsilə ödənilməsi üçün hər cür şərait yaradılıb. Nəticədə, ucqar dağ və sərhəd kəndlərində belə, yaşayan pensiyaçılar pensiyalarını yerli poçt bölmələrindən rahat şəkildə əldə edirlər. Görülən tədbirlər nəticəsində hazırda rayonda 79 pensiyaçı əmək pensiyalarını əlavə vaxt və vəsait sərf etmədən poçt bölmələri vasitəsilə əldə edir.

Həmçinin bildirilib ki, pensiyaçılar bundan sonra da istədikləri halda ərizə ilə müraciət edərək pensiyalarını poçt bölmələrindən rahat şəkildə ala bilərlər. Şöbə bundan sonra da pensiyaçıların rahatlığını təmin etmək üçün müvafiq tədbirləri həyata keçirəcək, bu sahədə maarifləndirmə işlərini davam etdirəcəkdir.

"Naxçıvanpoçt" publik hüquqi şəxsin Kəngərli rayon filialının rəisi Elnur Ağayev çıxışında vurğulayıb ki, muxtar respublikanın bütün rayonları kimi, Kəngərli rayonu da abadlaşır, yeni yollar çəkilir, məktəb binaları, kənd və xidmət mərkəzləri tikilərək istifadəyə verilir. Rayondakı belə yeni xidmət obyektlərindən olan Rabitə Evində də müasir iş şəraiti yaradılıb. Burada fəaliyyət göstərən "Naxçıvanpoçt" publik hüquqi şəxsin Kəngərli rayon filialında poçt xidmətlərinin nümunəvi təşkili təmin olunub. Rayonda əhaliyə xidmət edən poçt bölmələri müvafiq xidmətlərlə yanaşı, pensiya ödənişini də həyata keçirir. Bunun nəticəsində isə pensiyaçıların işi xeyli asanlaşıb.

Sonda mövzu ilə bağlı tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## İtmişdir

Mahmudov Hidayət Abbas oğlunun adına Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi tərəfindən verilmiş TŞ-020239 nömrəli traktorun qeydiyyat şəhadətnaməsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 970